Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Həqiqət illuzyonu- Seyid Hüseyn

**Seyid Hüseynin bu il 135 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2022**

**Tərtibçi:** **Aynurə Əliyeva**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
**Əməkdar Mədəniyyət işçisi**

**Həqiqət illuzyonu- Seyid Hüseyn-** Seyid Hüseynin 135 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. Aynurə Əliyeva; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. – 31s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## Tərtibçidən

Həyatda elə nadir şəxsiyyətlər olur ki, sadəcə yaşamırlar, bütün ömürləri boyu şam kimi yanır, insanların ürəklərini, şüurlarını işıqlandırır, necə yaşamağı, ülvi əməllər uğrunda necə mübarizə etməyi, Vətən üçün faydalı vətəndaş olmağın yollarını onlara öyrədir, həmişə adamları xoşbəxt görmək arzusu ilə çırpınırlar.

Bu günlərdə anadan olmasının 135-illiyini qeyd etiyimiz Seyid Hüseyn müasir ədəbiyyatımızın və ümumiyyətlə, ictimai fikir tariximizin yetişdirdiyi belə nadir şəxsiyyətlərdən biridir. Seyid Hüseyn 49 il sürən ömrünün 30 ildən çoxunu doğma ədəbiyyatımızın, mədəniyyətimizin inkişafına həsr etmişdir. Onun bütün şüurlu ömrü ictimai həyatın burulğanlarında keçmişdir. Zamanın ideya çarpışmalarının mürəkkəbliyindən doğan bəzi ziddiyyətlərinə baxmayaraq, Seyid Hüseyn həmişə əsrin ictimai-siyasi və ədəbi mübarizələrinin mütərəqqi qütbündə olmuşdur.

Unudulmaz sənətkar Seyid Hüseynin bu il 135 illik yubileyi olur. Bu münasibətlə Respublikanın bütün mədəniyyət müəssisələrində, eyni zamanda, kitabxanalarda yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Biz də öz növbəmizdə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə “Faciəli rollar qəhramanı- Seyid Hüseyn” adlanır və ədibin yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır. II hissədə isə yubiley münasibətilə ilə kitabxanalarda keçiriləcək tədbirlər öz əksini tapır. Bu tədbirlər arasında sərgi mühüm yer tutur. Sərgidə yazıçının kitabları, müxtəlif mətbuat səhifələrində onun haqqında nəşr olunmuş məqalələr və onun fotoları nümayiş

olunur. Sərgi başlıqları aşağıdakılardan ibarətdir: Bunlardan Sevimli ədib-Seyid Hüseyn", "Həqiqət illuzyonu- Seyid Hüseyn", ""Molla Nəsrəddin" in dostu-Seyid Hüseyn", "Xalq sənətinə bağlı insan", "Seyid Hüseynin maarifçilik fikirləri haqqında", "Söz ustası-fikir ustadı-Seyid Hüseyn", ""Müqəssir" günahsız", "Burulğana tuş gələn ədib", "Seyid Hüseyn tədris kitabları haqqında", "Seyid Hüseyn xatirələri", "Yeni həyatın tərənnümçüsü", "Tənqidçi şəxsiyyəti", "Seyid Hüseynin naməlum əsərləri", "Yazıçı, alim, vətəndaş", "Vətəndaş yazıçı", "Görkəmli yazıçı, qayğıkeş müəllim", "Unudulmaz ədib-Seyid Hüseyn", "Şəkillərdən baxan ədib" və s. misal göstərmək olar. Bununla yanaşı ədibin müxtəlif illərdə çəkilmiş foto stendi, Seyid Hüseynin kitabları sərgidə öz yerini alır. Ədibin öz əsərləri ilə yanaşı, müxtəlif ədiblərin onun haqqında yazdığı materiallar da sərgidə nümayiş olunur. Görkəmli insanların ədib haqqında söylədikləri kəlamlar və şeir parçaları da sərgidə verilir.

## Həyatı

Seyid Hüseyn 1887-ci il yanvarın 25-də Bakı şəhərində anadan olmuşdur. Beş yaşında atasını itirən Seyid babası Mirsadiq Mirhəsənin himayəsində böyüyüb tərbiyə almışdır. O, əvvəl mollaxanada, sonra dövrünün görkəmli maarif xadimlərindən olan Mahmud bəy Mahmudbəyovun müdir olduğu rus-tatar məktəbində dörd ilə yaxın təhsil almışdır. Azərbaycan, rus, fars dillərini mükəmməl öyrənmişdir. 1904-cü ildə – babasının vəfatından sonra ailənin qayğısı S.Hüseynin üzərinə düşmüşdür. O, "Kaspi" mətbəəsində işə girir və 1912-ci ilə kimi orada mürəttiblik edir. 1913–1914 illərdə "İqbal" ın baş redaktoru idi. 1920-ci ildən "Kommunist" qəzeti redaksiyasında ədəbi işçi kimi fəaliyyət göstərmiş, Bakının orta məktəb və texnikumlarında

müəllimlik etmiş, ömrünün son illərində isə Azərnəşrin bədii ədəbiyyat şöbəsinin redaktoru olmuşdur. O, bədii yaradıcılığa 1907-ci ildə başlamışdır.
Seyid Hüseyn 1907-ci ildə qəzet və jurnallarda məqalə və felyetonları ilə çıxış etmişdir.
1934-cü ildən Azərbaycan Yazıçılar İttifaqının üzvü olmuş, milli ədəbiyyatımızın zənginləşməsi üçün səy göstərmişdir. Ancaq bir çox Azərbaycan ədəbiyyatının görkəmli xadimləri kimi repressiya dalğası ondan və ailəsindən də yan keçməmişdir. 1936-cı ildə O, Yazıçılar İttifaqının üzvlüyündən çıxarılmış, əsərləri kəskin tənqid olunaraq, onlara siyasi rəng verilmiş, adına “xalq düşməni” damğası vurmuşlar.
Çağdaş Azərbaycan nəsrinin, xüsusilə onun hekayə janrının inkişafı tarixi Seyid Hüseynin adı ilə sıx surətdə bağlıdır. Onun nəsri-çağdaş Azərbaycan ədəbiyyatının təşəkkülü və inkişafı dövrünün ən parlaq səhifələrindən biridir. Seyid Hüseynin 20-ci illərin sonundan 30-cu illərin birinci yarısınadək yazdığı hekayələr o zaman oxucuların dillərində əzbər olmuş, indi də öz təravətlərini saxlamış müasirliyini ititrməmiş, müəllifə şirin hekayə ustası kimi şöhrət qazanmışdır. Hüseyn Mir Kazım oğlu “Tazə həyat” və “Kaspi” qəzetlərinin mətbəələrində mürəttib olmuş, şərikli “Bəhlul”, “Kəlniyyət” və “Qurtuluş” jurnallarını nəşr etdirmişdir.
Hekayə və publisistik məqalələrində mürtəce ziyalıların əleyhinə çıxmış, Azərbaycan dilinin saflığı uğrunda mübarizə aparmışdır. Azərbaycan ədəbiyyatı və ədəbiyyat xadimləri haqda məqalələr, müasir həyatdan bəhs edən hekayələr yazmışdır.
Seyid Hüseyn ictimai hadisələrə münasibətdə S.Hüseyn ilə daim həmfikir olmuşdur. Onların arasında qarşılıqlı səmimi

münasibət var idi. S.Hüseynin redaktorluq etdiyi “Yeni iqbal” və “Azərbaycan” qəzetlərində məqalələrlə çıxış edirdi. “Qurtuluş” jurnalının nəşrə başlanılmasını S.Hüseyn böyük sevinclə qarşılamışdı. Repressiyanın qurbanlarından olan Seyid Hüseyn 1937-ci ildə həbs edilmiş, 1938-ci ilin yanvarında güllələnmişdir.

### *Yaradıcılığı*

Seyid Hüseynin ədəbi yaradıcılığa başlaması müstəqil həyata, əmək fəaliyyətinə qədəm qoyduğu ilk illərə təsadüf edir. 1908-ci ildən etibarən o, əvvəlcə ara-sıra,sonralar isə müntəzəm olaraq qəzetlərdə, jurnallarda “Kazımoğlu”, “Hüseyn Sadiq”, “Seyid Hüseyn”, “Seyid Hüseyn Sadıqzadə”, “Mühərrir” imzaları ilə ədəbi-tənqidi məqalələr dərc etdirmiş, Bakının ictimai həyatında, mədəni-maarif cəmiyyətlərinin fəaliyyətində yaxından iştirak etmiş, 1927-ci ilə kimi müvəqqəti-mühərrir kimi tanınmışdır. Onun “Gələcək həyat yollarında” , “Şirinnaz”, “İki həyat arasında”, “Yatmış kəndin qış gecələrində”, “Gilan qızı” və s. hekayələri, “Altun”, “Yalan”, “Gözəllik nədir?” və s. məqalələri oxucuların diqqətini cəlb edir. Müəllifin müxtəlif illərdə bir çox kitabları nəşr etdirilmişdir: “Ağ valideyn, yaxud zavallı  Məşədi Zaman” (1911), “Qaçaq oğul, yaxud ata məhəbbəti” (1915), “Yeni həyat yollarında”  (1928) və s.

### *Əsərləri:*

1. İki  həyat arasında, B., Azərnəşr, 1930, 208 səh., 3000 nüs.
2. İki həyat arasında, B., Azərnəşr, 1934, 429 səh., 3000 nüs.
3. Yeni həyat yollarında, B., Azərnəşr, 1928, 101 səh., 3000 nüs.
4. Seçilmiş əsərləri, B., Azərnəşr, 1960, 428 səh., 15.000 nüs.
5. Şirinnaz, B., Uşaqgəncnəşr, 1961, 76 səh., 25000 nüs.

6. Bir küçənin tarixi, B., Azərnəşr, 1965, 90 səh., 12000 nüs.
7. Xeyir və bərəkət ayı, B., Azərnəşr, 1965, 36 səh., 8000 nüs.
8. Yatmış kəndin qış gecələri, B., Gənclik, 1969, 140 səh., 20000 nüs.
9. Həzin bir xatirə, B., Gənclik, 1973, 80 səh., 20000 nüs.
10. Hekayələr, B., Gənclik, 1977, 183 səh., 20000 nüs.
11. İki həyat arasında, B., Gənclik, 1987, 124 səh., 30000 nüs.

## Kitab sərgisi












**Ailəsi**

Seyid Hüseyn Məmməd Əmin Rəsulzadənin əmisi qızı Ümgülsüm Sadıqzadə ilə evlənmiş, Oqtay Sadıqzadə, Toğrul Sadıqzadə Qumral Sadıqzadə adlı uşaqları olub.

Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

XX əsrin əvvəllərində ədəbi tənqidin əsas yaradıcılarından biri də Seyid Hüseyn (1887-1938) olmuşdur. Seyid Hüseyn də bütün maarifpərvər ziyalılar kimi xalqın savadlanması, yeni məktəblərin açılması, tədris kitablarının nəşri, müəllim kadrlarının yetirilməsində böyük xidmətləri olmuşdur.

Seyid Hüseyn obyektiv olmayan şəxs düşmənçilik və kin-kudurətli tənqidin əleyhinə olmuşdur. XX əsrin əvvəllərində ədəbiyyat kimi onun ayrılmaz bir sahəsi olan ədəbi tənqid də Azərbaycan ictimai-siyasi və ədəbi həyatında baş verən hadisələrdən, fikri ixtilaf və mübarizələrdən kənarda deyildi. Demokratik və inqilabi demokratik tənqid yeni əsrin ən qüvvətli, ən kütləvi tənqidi cərəyanı idi. Milli ədəbiyyatın qabaqcıl demokrativ ideya və ənənələrini müdafiə edən ədəbi hadisələrin qiymətləndirilməsində geniş xalq kütlələrinin mənafeyini, ehtiyac və tələblərini hər şeydən üstün tutan Firidun bəy Köçərli, Seyid Hüseyn, Kazımoğlu, Abdulla Sur, Hacı İbrahim Qasımov kimi nümayəndələri var idi.

Milli ədəbi tənqidin əsas yaradıcılarından biri olan Seyid Hüseyn yarım əsrlik ömür yolunun çox hissəsini Azərbaycan ədəbiyyatı və ədəbi tənqidinin tərəqqisinə həsr etmişdir.

Seyid Hüseyn müasir nəsrin ilk nümunələrini yaradan, kiçik hekayələr ustası, görkəmli mətbuat və mədəniyyət xadimi kimi tanınmışdır.

İki işini "Kaspi" qəzeti redaksiyasında işə başlamış, burada dövrün tanınmış yazıçısı, şamro və təsisçiləri ilə olan tanışlıq onun gələcək fəaliyyətinin istiqamətini müəyyənləşdirilmişdir. XX əsrin əvvəllərində mətbuat aləminə daxil olan tənqidçi qəzet və jurnalların bir çoxunda əməkdaşlıq edir. "İqbal", "Qurtuluş" və s. kimi mətbu orqanların baş redaktoru vəzifəsində çalışır. XX əsrin 10-cu illərində müasir ədəbi prosesi diqqətlə izləyən, çap olunan əsərlər barədə vaxtında və müntəzəm surətdə rəy söyləyən Seyid Hüseyn dövrün ən fəal tənqidçisi kimi tanınmışdır. Məmməd Məmmədov qeyd edir ki, Seyid Hüseyn müasirlərinin böyük əksəriyyəti haqqında yazmış, onların əsərlərinin, belə demək mümkünsə ilk rəyçisi və şərhçisi olmuşdur.

Bu məqalələrin hər birinin özünəməxsus konkret ünvanı, mövzusu və məqsədi olsa da, məqalə müəllifi təkcə həmin əsəri. İdeya-sənətkarlıq baxımından səciyyələndirməklə kifayətlənmir, bu və ya digər əsəri təhlil edərkən, məqamı düşdükcə, elmi ümumiləşdirmələr aparır, tənqid və ədəbiyyatşünaslığımızın o zamankı səviyyəsinə uyğun maraqlı nəticələr gəlir.

Seyid Hüseynin bu sahədəki bacarığını müasirlərindən biri olan, M.Hadi Seyid Hüseyni "doğru söz deyən qələmi-sadiq" tənqidçi adlandırmışdır. Cəfər Cabbarlı isə ondan "yalnız Azərbaycanda deyil, bəlkə bütün Zaqafqaziya türkləri arasında müqtədir tənqidçi adı daşımağa ləyaqət qazanmış münəqqib" kimi bəhs etmişdir.

XX əsrin əvvəllərində yaradıcılığa başlayan, az-çox tanınmış, elə bir yazıçı və şairlərin adını çəkmək çətindir ki, tənqidçi Seyid Hüseyin qələmindən kənarda qalmış olsun. C.Məmməd Quluzadə, N.Vəzirov, M.Ə.Sabir, Ə.Haqverdiyev, N.Nərimanov, F.Köçərli, M.S.Ordubadi,

S.M.Qənizadə, Y.V.Çəmənzəminli, A.Divanbəyoğlu, M.Hadi, A. Səhhət, C.Cabbarlı, A.Şaiq və başqa yazıçıların yaradıcılıqları, realist demokratik ədəbi tənqidin aparıcı nümayəndələrindən biri kimi Seyid Hüseynin diqqətini daha çox cəlb etmişdir. Bu sənətkarın əsərlərinin çap etdirmiş, hər bir əsəri layiqincə qiymətləndirməklə yanaşı, əsərlərdə nəzərə çarpan ideya, sənətkarlıq qüsurlarını da obyektiv, prinsipal mövqedən tənqid atəşinə tutmuşdu.

Demək olar ki, ədəbi fəaliyyətə təzəcə başlayan Əli Səbri Qasımovun "Solğun çiçəklər", "Şəbi-hicran" (1913), Rza Zakinin "Nakam qız" (1911), "Fadayi-eşq" (1912), Səkinə xanım Axundovanın "Zülmün Səmərəsi" (1917), Əhmədbəy Qəmərlinskinin "Bəhluli-danəndə" (1919) və bu kimi gənc qələm sahiblərinin ilk əsərləri də Seyid Hüseynin tənqid qələmindən kənarda qalmamışdır. XX əsrin 10-cu illəri Seyid Hüseynin yaradıcılıq fəaliyyəti təkcə tənqidçiliklə kifayətlənmir. O, bu dövrdə bir sıra hekayələr "Dərədən-təpədən" ümumi başlıqı altında silsiləvi felyetonlar, elmə, maarifə, gənclərin təlim və tərbiyəsinə dair məqalələr də qələmə almışdır. Hənəfi Zeynallı vaxtilə Seyid Hüseynin ədəbi yaradıcılığından bəhs edərkən yazırdı: "Seyid Hüseynin əsərlərindəki bütün vaqeələr keçirməkdə olduğumuz ictimai həyatın, siyasətin, iqtisadi yaşayışın sapları ilə sıx bağlanmışdır". XX əsrin 20-ci illərindən sonra S.Hüseyn hər tənqidçilik fəaliyyətini davam etdirir. O, istər klassik, istərsə də müasir olduğu yazıçıların yaradıcılığına həsr olunmuş, ədəbiyyatşünaslığın təməl daşını qoyanlardan biri olmuşdur.

Bu illərdə Seyid Hüseyn hər bir şair və yazıçının yaradıcılığına dair məqalələr dərc edir, ədəbiyyatın qarşısında duran yeni vəzifələr üçün, diqqətəlayiq fikirlər söyləyirdi.

Ömrümün son illərində bir-birinin ardınca nəşr etdirdiyi "Yeni həyat yollarında" (1928), "İki həyat arasında" (1930), "Şirin-naz" (1937) kitablarında toplanmış əsərlərlə kiçik hekayələr ustası kimi tanınır. Seyid Hüseyn həm də müasir Azərbaycan nəşrinin ilk nümunələrini yaradan sənətkarlar sırasında özünə layiqli mövqə qazanır. Professor Kamal Talıbzadə Seyid Hüseynin ədəbi görüşlərinin əsas prinsiplərini müəyyənləşdirərkən, haqlı olaraq onun sənətin həyatla əlaqəsinə, münasibəti məsələsini ön plana çəkir. Alimin fikrincə: "bunsuz tənqidçinin ayrı-ayrı ədəbi hadisələrə, yazıçı və əsələrlə münasibətini aydın təssəvvür etmək çətindir".

Seyid Hüseyn daima realist sənətkarları həyat həqiqətini əks etdirməyə, canlı müşahidələrə əsaslanmağa, gördüklərini yazmağa səsləyirdi. Seyid Hüseynin fikrincə "sənət həyatı təsvir edə bilmək qabiliyyətidir". Bu, tənqidçinini əsas prinsipi idi. Seyid Hüseyn hər bir şair və yazıçının əsərləri haqqında mübahisələrdə iştirak edəndə, bir tənqidçi kimi qiymət və fikrini bildirəndə də məhz sənətin həyat, həqiqətinə münasibətində də bu prinsipə əsaslanırdı. Seyid Hüseynin C.Məmmədquluzadənin "Ölülər" komediyasının ilk tamaşası ətrafında gedən mübahisə və müzakirələrdə iştirak etmiş, əsər üçün öz layiqli qiymətini verərək əvvəlcə "Ölülər" və onun tənqidləri haqqında bir mütaliə" adlı məqalələrini dərc etdirərək "Ölülər" ədəbiyyatımızda "inqilab törədə biləcək məziyyətdə" olan bir əsər kimi dəyərləndirmişdir.

Seyid Hüseyn bu əsərin ideya məzmununa və sənətkarlığına yüksək qiymət verir və fransız yazıçısı V.Hüqoqun "Səfillər"i və rus dramaturqu N.Y.Qoqolun "Müfəttiş" i ilə məqayisə edərək yazırdı: "Bilirəm, bir çoxları Mirzə Cəlilin "Ölülər" ini Qoqulun Revizor" da kefli İskəndər kimi bir qüvvə yoxdur ki, "elm oxuyun, alim olun deyib", "adam olun"

deməyənlərə, doqquz yaşında ərə gedən qızlara, qardaşının, ata və anasının dirilməsindən ötrü fikirləşməyə gələnlərə, dirildikdən sonra evlərinə, yurdlarına qayıtmaq istərkən qapısı üzünə açılmayan ölülərə gülsün, doqquz yaşında nazılarını şeyx nəsrullahlara məcburən arvad etmək istəyən atalarının üzünə tüpürməklə ağlasın və ağlatsın. Mən deyirəm ki, bir əsr bundan əvvəl Fransa əhvali-ictimaiyyəsində "Səfillər" nə isə V.Hüqonun ac və səfil arvad uşaqları və küçələrdə yaşayan sahibsiz "gülxan bəyləri" bəşər cəmiyyətinə və fransız əfkarına necə təsir bağışlayacaq, səhnəmizdə rusların "Revizor" u qədər ölməz tutacaqlar. Seyid Hüseyn əsərin qiymətini düzgün anlayıb verə bilməyənlərə cavab olaraq yazırdı: "Ölülər" faciəsinin ruhu Şeyx Nəsrullahın hiylələrində deyil, onun hiyləsi qurbanı olan doqquz yaşlı nazlılarının ailədəki və həyatı-ictimaiyyətimizdəki mövqelərindəndir". Seyid Hüseynin tənqidçi qələminini yüksək qiymətini Sabir, Çəmənzəminli, Haqverdiyev, Nərimanov, Qənizadə, Səbri, Ordubadi yaradıcılığına münasibətdə də aydın görmək olar.

Seyid Hüseynin Abdullahbəy Divanbəyoğlunun "Can yanğısı" əsərinə verdiyi düzgün qiyməti "bu gün bizim arvadlarımızın halı həman zəncilərin əsarət halları kimidir. Bu məsələyə münasibət birinci olaraaq möhtərəm A.Divanbəyi tərəfindən nəşr edilən "Can yanğısı" arvadlarımızın hallarında bir nümunə göstərmişdir, "Can yanğısı" Qafqaz köçəri məişətini təsvir edən hekayədir. Bu hekayə Ruqiyyə adlı bir Qafqazlı arvad qədər çəkdiyi zəhmət və müsibəti göstərir". Bu dövr üçün adi hal idi. Hər bir qadın bu zülmləri görərək yaşayır, səslərin belə çıxarmağa haqları yox idi. Lakin belə əsərlərin meydana gəlməsi ilə qadınlarımız, Cəfər Cabbarlının "Sevili" kimi bu əsarətə qarşı haqq səslərini qaldırmağa gücləri yetərdi. Seyid Hüseyn "Can

yanğısı” əsərinin “bir taqım səhvlərə təsadüf edildiyini” yazır. Əsərin dili, yazılış qaydasını tənqidçi səhv olduğunu, bu da Qafqaz Şivəsindən irəli gəldiyini açıqlayır.

Hər bir yaradıcılığa verilən düzgün qiymət, hər bir şair və yazıçının xalq arasındakı mövqeyini təyin edir. Seyid Hüseyn də bir tənqidçi kimi çalışmışdır, hər bir əsəri düzgün və layiqincə qiymətini versin ki, yazılan düzgün olmayan söz müəllif üçün zərərli olsun. Seyid Hüseyn hər zaman tənqidə və tənqidçiyə ehtiyac olduğunu deyir: “Tənqidə bu qədər ehtiyac olduğu halda təəssüflər olsun ki, bu vaxtadək bu xüsusda bizdə əhəmiyyət verilməmişdir. Budur ki, nə müəlliflərimiz hansı yol ilə yazacaqlarını bilirlər, nə də şairlərimiz nə kimi əsərlərin camaata mənfəət verəcəyini tanıyırlar. Bizdə tənqidçi yoxluğundandır ki, təb və nəşr edilən kitablarımızın içində bir çox əxlaq pozan və heç bir məziyyəti olmayan kitabçalar təsadüf edilir. Yenə tənqidçi yoxluğundandır ki, “Osmanlı hökumətini qüdrətli günləri” kimi kitablarda türklərin tarixi gülünc surətdə meydana qoyulub. “Aşçı başının əli altında xidmət edən oğlanlar küçəyə çıxdıqca onun-bunun sataşmasından qorxub arvad kimi üzlərini örtərdilər: və yaxud “Soltanın sarayında xidmət edən xristian uşaqlarının əndamı tər kimi gözəl olması şərt idi” və s. kimi fəqərələr insanın ruhunu zəhərləmədədir. Halbuki, bunların qabağına sədd çəkib ədəbsizlərə ədəb öyrətməlidirlər”. Doğrudan da tənqidçinin dediyi kimi bu gün necə bir nəticə verəcəyini hər kəs düşünə bilər, zənn edirəm”.

Ədəbiyyat tarixində istedadlı bir ədəbiyyatşünas tənqidçi və publisist kimi tanınılan Seyid Hüseyn Azərbaycan ədəbiyyatı, teatrı, dili və mətbuatının inkişafında mühüm xidmətləri olmuşdur. Mətbuat səhifələrində dərc olunan “Ədəbiyyata bir nəzər”, “Sabir və N.Vəzirov haqqında”, “Mətbuatımıza bir nəzər”, A.Divanbəyoğlunun “Can

yanğısı", M.C.Ordubadinin "Bədbəxt milyonçu, yaxud Rzaqulu xan Firənqiməab", Ə.Haqverdiyevin "Şeyx Şaban", F.Köçərli "Balalara hədiyyə", C.Cabbarlının "Ədirnə fəthi" əsərləri haqqında yazdığı tənqidi məqalələr ədəbiyyatşünaslığın inkişafında mühüm yer tapmışdır.

Seyid Hüseyn Azərbaycan ədəbiyyatında roman janrının olmamasından, həyat hadisələrinin geniş planda əks etdirən epik əsərlərin azlığından şikayətlənirdi.

Tənqidçinin fikrinə görə, romanın "Təhribi-əxlaqa" rolu böyükdür. Hər bir insanın öz nöqsanlarını görmək üçün roman əlverişli vasitədir. Romanda həyat hadisələri geniş şəkildə, canlı bədii lövhələr vasitəsilə təsvir olunur.

Azərbaycan ədəbiyyatının keşiyində sərvaxt dayanan, öz xalqının ədəbi-bədii fikrinin hər cəhətdən inkişafına çalışan Seyid Hüseynin tənqidçilik fəaliyyəti geniş və əhatəlidir.

**Mollanəsrəddinçi SEYİD HÜSEYN haqqında…**

Görkəmli tənqidçi, yazıçı, publisist, pedaqoq, ictimai xadim Seyid Hüseyn yaddaşlarda xoş xatirələr buraxıb. Bu xatirələri oxuduqca yazıçının ədəbi portreti gözümüz önündə canlanır. Seçilən cizgilər Seyid Hüseynin ağır təbiəti ilə yanaşı, mülayim xasiyyəti, təmkinliliyi, qayğıkeşliyi, problem yaradan deyil, problem həll edən, az, lakin kəsərli danışan şəxsiyyətə malik olması haqqında xəbər verir. Sovet hakimiyyətinin ilk illərində "Molla Nəsrəddin" redaksiyasında çalışan Qulam Məmmədlinin "Məni niyə döyürsünüz?" məqaləsi Seyid Hüseynin xatirəsini diri saxladığına görə marağımızı çəkdi. Onu da qeyd edək ki, bu il "Molla Nəsrəddin" jurnalının yaranmasının 110-cu ildönümü olması səbəbi ilə və həmçinin Seyid Hüseyn "Molla Nəsrəddin" ədəbi məktəbinin davamçılarından

ilklərin sırasında olduğu üçün bu mövzu hər iki münasibətlə aktualdır.

## Niyə məni döyürsünüz?

*Qulam Məmmədli*
*Mollanəsrəddinçinin xatirəsi*

"Molla Nəsrəddin" jurnalının nömrələrinin birində bəylərin, xanların, mollaların, çinovniklərin əllərində "Mollanı döydükləri" şəkli çəkilmiş və "Niyə məni döyürsünüz?" başlıqlaı bir felyeton da yazılmışdı. Gülməli idi, çox gülməli idi...

Mən hər dəfə o şəklə baxanda gülərdim, daha bilməzdim ki, o əhvalat elə mənim öz başıma da gələ bilər...

İş elə gətirdi ki, 1923-cü ildə mən Bakıya gəldim. "Kommunist" qəzeti və "Molla Nəsrəddin" jurnalı çap olunan mətbəədə işləməli oldum. Qəzetdə və jurnalda çap olunan məqalə və felyetonları yığa-yığa yazmağı öyrənməyə çalışdım...

Günlərin bir günü iki-üç nəfər işçilərimizin işə gəlmədiyini bilib səbəbini soruşduq, dedilər ki, onlar gediblər: sinə vurmağa, şaxsey deməyə, savab qazanıb Cənnətə düşməyə.

Əlim dinc durmadı, götürdüm "Molla Nəsrəddin"ə "Təzə il, təzə şərtlər" başlıqlı bir felyeton yazdım. Aparıb verdim Mirzə Cəlilə. O da ora-burasını düzəldib jurnalın ( 1925-ci il 3 yanvar) birinci nömrəsində çap elədi.

Felyetonda məşhər gününü yuxuda gördüyümü təsvir edirdim:

"Baxdım, gördüm bir bağdır, bir şəxs oturub, dizlərinin üstündə bir mamılı-matan huri ilə söhbət eləyir. Amma həmin adam mazaqlaşanda ki, istəyir əlini hurinin bədəninə vursun, huri qışqırırdı ki: ...Yandım! Mən bunun səbəbini soruşdum.

Dedilər ki, bu, mürəttibdir. Ancaq dünyada olduqca namaz qılıb, oruc tutub, sinə vurub, zəncir vurub, müxtəsər, Allahın bütün əmrlərini yerinə yetirib. Odur ki, Allah ona behişt verib. Amma bütün ömründə iki nömrə "Molla Nəsrəddin" yığdığı üçün onun barmaqları həmişə yanır. O səbəbə huri deyir: "Əl vurma, yandım!..."
Mən bu dünyada şəriətin vədinə görə bütün əzablara qatlaşıram ki, o dünyada, heç olmasa, bir ağız ləzzəti görüm. Orada da ki mənə deyəcəklər:
- Əl vurma, yandım! – Daha niyə özümü öldürüm?!"
Mən felyetonda ad çəkməmişdim. Amma jurnal çapdan çıxdı, əllərə düşdü, oxudular, onda "Niyə məni döyürsünüz?" əhvalatı mənim də başıma gəldi.
O gün işə başlayanda sinə vurmağa gedənlərdən birisi mənim "gərdimə bir daş atdı", mən qulaq ardına vurdum, o birisi hədə-qorxulu bir cümlə işlətdi. Mən dinmədim, yavaş-yavaş hədə-qorxudan söyüşə keçdilər.
Bu da kifayət eləməyəndə onlardan biri mənə tərəf bir-iki addım irəli gəlib:
- Olmayeydi bura, oleydi küçə, mən məqalə yazmağı sənə öyrədərdim! – dedi.
Lap az qalmışdı deyim ki, "Məni niyə döyürsünüz?", bu vaxt yazıçı Seyid Hüseyn sexə gəldi.:
- Nə var, nə olub?
- Nə olacaq, bizi jurnala yazan tapılıb?
- Bəlkə o yazmayıb?
- Necə o yazmayıb? Altında imzası var: "Səni yığan mürəttib".
Seyid Hüseyn özünəməxsus təmkinlə onları başa saldı ki, belə olmaz. Əgər yazılan doğrudursa, bu dava-şavaya lüzum yoxdur. Yox, yalandırsa, bu barədə redaksiyaya xəbər verin,

qoy yoxlasınlar, yalan yazan müxbir haqqında tədbir görsünlər.
Seyid Hüseyn o dəqiqədə gəlib oraya çıxmasaydı, mənim aşımı bişirəcəkdilər.
Məsələ bununla qurtarmadı. Mətbəənin partiya təşkilatı, yerli komitə, redaksiyalar işə qarışdılar, komissiya ayırdılar, yoxladılar və yoldaşlıq məhkəməsi qurulub məni təhqir edənləri o ki var danladılar. Bir-iki gündən sonra "Kommunist" qəzetinin 1925-ci il 21 yanvar tarixli nömrəsində "Müxbiri təhqir" başlıqlı bir məktub dərc edilmişdi.
"Molla Nəsrəddin" məcmuəsinə məqalə yazmış mürəttib Məmmədlini türk (Azərbaycan – Q.M.) şöbəsi mürəttiblərindən B.R. və N.C. (mən indi onların adını açıq yazmağı lazım bilmirəm) təhqir etmişdirlər. Aparılan tədqiqat nəticəsində məzkur mürəttiblər H.Əlibəyovun təşviqi ilə yoldaş Məmmədlini təhqir etdikləri anlaşılmışdır. Ümumi iclas komissiyonunun təhqiqat haqqında məruzəsini dinlədikdən sonra məzkur mürəttibləri şiddətli surətdə təkdir etmişdir".
Bir neçə il bundan qabaq mənə xəbər verdilər ki, həmin adam huri almaq üçün cümə axşamları Aşqabadda qəbirstanlığa gedir, ölülər üçün "Yasin" oxuyub halva payı yığırmış...

Dəyərli yazar Seyid Hüseynin 135 illik yubileyi ilə əlaqədar *kitabxanada "Seyid Hüseynin acı həyat hekayəti"* adlı **"dəyirmi masa"** keçirilməsi məqsədəuyğundur. Tədbir oxucuların iştirakı ilə kitabxanada keçirilir. İlk olararaq kitabxanaçı səhnəyə çıxıb qonaqları salamlayır və Seyid Hüseynin yaradıcılığı haqqında qısa məlumat verir.

***Kitabxanaçı:*** 1937-ci il Azərbaycanda repressiyaların tüğyan etdiyi tarixdi. Bu il həmin hadisələrin 80-ci ildönümüdür. Publika.az "1937" layihəsində repressiya

qurbanlarını anaraq onların ömür yoluna yeni işıq salmağa çalışacaq.

1937-38-ci illərdə amansız Stalin repressiyasının qurbanlarından biri də yazıçı Seyid Hüseyndir. Bir çox Azərbaycan ziyalıları kimi, irtica yalnız onun özünü deyil, ailəsini də qara siyahıya salmışdı. S.Hüseyn 1887-ci il yanvarın 25-də Bakı şəhərində anadan olmuşdur. Beş yaşında atasını itirən Seyid babası Mirsadiq Mirhəsənin himayəsində böyüyüb tərbiyə almışdır.

O, əvvəl mollaxanada, sonra dövrünün görkəmli maarif xadimlərindən olan Mahmudbəy Mahmudbəyovun müdir olduğu "Rus-tatar" məktəbində dörd ilə yaxın təhsil almışdır. Azərbaycan, rus, fars dillərini mükəmməl öyrənmişdir.

1904-ci ildə – babasının vəfatından sonra ailənin qayğısı S.Hüseynin üzərinə düşmüşdür. O, "Kaspi" mətbəəsində işə girir və 1912-ci ilə kimi orada mürəttiblik edir. 1920-ci ildən "Kommunist" qəzeti redaksiyasında ədəbi işçi kimi fəaliyyət göstərmiş, Bakının orta məktəb və texnikumlarında müəllimlik etmiş, ömrünün son illərində isə "Azərnəşr"in bədii ədəbiyyat şöbəsinin redaktoru olmuşdur.O, bədii yaradıcılığa 1907-ci ildə başlamışdır.

S.Hüseyn 1907-ci ildə qəzet və jurnallarda məqalə və felyetonları ilə çıxış etmişdir. Mətbuatda "Kazımoğlu", "Hüseyn Sadiq", "Seyid Hüseyn Sadıqzadə", "Mühərrir" və b. imzalarla fəaliyyət göstərmişdir. Onun "Gələcək həyat yollarında", "Şirinnaz", "Iki həyat arasında", "Yatmış kəndin qış gecələrində", "Gilan qızı" və s. hekayələri, "Altun", "Yalan", "Gözəllik nədir?" və s. məqalələri oxucuların diqqətini cəlb edir. Müəllifin müxtəlif illərdə bir çox kitabları nəşr etdirilmişdir: "Ağ valideyn, yaxud zavallı Məşədi Zaman" (1911), "Qaçaq oğul, yaxud ata məhəbbəti" (1915), "Yeni həyat yollarında" (1928) və.s O, 1934-cü ildən

Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuş, milli ədəbiyyatımızın zənginləşməsi üçün səy göstərmişdir. Ancaq bir çox Azərbaycan ədəbiyyatının görkəmli xadimləri kimi repressiya dalğası ondan və ailəsindən də yan keçməmişdir. 1936-cı ildə O, Yazıçılar İttifaqının üzvlüyündən çıxarılmış, əsərləri kəskin tənqid olunaraq, onlara siyasi rəng verilmiş, adına "xalq düşməni" damğası vurmuşlar.

Yazıçı 1937-ci il iyulun 15-də Şüvəlandakı bağında həbs olunmuş, ən ağır cəzaya – güllələnməyə məhkum edilmişdir. Uzun sürən əzablı işgəncələrdən sonra, 1938-ci ilin əvvəllərində rejimin çıxardığı hökm yerinə yetirilmişdir.

S.Hüseynin həyat yoldaşı Umgülsüm Əbdüləziz qızı Sadıqzadə 1899-cu ildə Bakının Novxanı kəndində ruhani ailəsində anadan olmuşdur. Kiçik yaşlarında ata və anasından fars və türk dillərini öyrənən Umgülsüm, Şərq ədəbiyyatına və klassik Azərbaycan şeirinə maraq göstərmişdir. 9 yaşından şeir yazmağa başlamış Umgülsüm 1914-cü ildən "İqbal", "Yeni iqbal", "Açıq söz" və s. mətbuat orqanlarında hekayə və şeirlərini çap etdirmişdir. Onun 200-dən artıq şeiri, bir poeması bizə gəlib çatmışdır. O, həmçinin "Vətən sevgisi", "Solğun çiçək" və s. hekayələrin müəllifidir. Umgülsüm xanım Məhəmməd Əmin Rəsulzadənin qohumu idi. O, 1920-ci ildə S.Hüseynlə xoşbəxt ailə həyatı qurmuş Umgülsüm sonralar həyat yoldaşı kimi əzablı bir taleyi yaşadı. 1937-ci il noyabr ayının 11-də repressiya cəlladları onu da həbs edib Bayıl həbsxanasının qaranlıq zindanlarına saldılar. Ananı üç övladından ayıraraq sürgün etdilər. Qaranlıq, soyuq kameralar onu sıxdı, lakin ana qürurunu sındırmadı. Çalışdı ki, ölməsin, Oqtayına, Toğruluna, Cığatayına, Qumralına qovuşsun… 1941-ci ili aprel ayında "Temlaq" dustaqxanasında doğma musiqini eşidən şairə yazdığı kövrək

şeirdə arzulayır ki, kaş bu ecazkar, doğma musiqi heç olmasa yarımca saat da davam eləsin…

Titrərkən telləri tar- kamançanın
Ürəyim döyündü, əlim titrədi.
Ey gözəl vətənim! Eşqinlə sənin
Gözlərim yaşardı, dilim titrədi.
Çal gözəl musiqi, çal ki, səsinə
Qərib könüllərin ehtiyacı var.
Vurğun aşiqlərin hər nəfəsilə
Xəstələr dərdinə min şəfa tapar.

Kitabxanaçının dəyərli çıxışından sonra tədbirdə iştirak edən araşdırmaçı-tədqiqatçılar da Seyid Hüseynin həyat və yaradıcılığından və onun Azərbaycan ədəbiyyatına verdiyi töhfələrdən söhbət açdılar.

***I Tədbir iştirakçısı:*** Mən söhbətə Seyid Hüseynin oğlu Sadıqzadənin xatirələrindən söhbət açmaq istərdim: "O vaxt mənim 16 yaşım vardı. Valideynlərimin ikisi də 1937-ci ildə tutuldu. Atam Seyid Hüseyn güllələndi, anam Umgülsüm isə Şimala – Mordva vilayətinə sürgün olundu. O vaxt xalamgilin bağlarında qonaq idim. Xalamın böyük oğlu Rəsulu bağda olarkən tutdular və üç gündən sonra güllələdilər. Eyni gündə də öz bağımızda atamı tutmuşdular. Atamı ya millətçi, ya da Məmməd Əminin qohumu olduğuna görə həbs etdilər. Mən onda rəssamlıq məktəbində oxuyurdum. Atam həbs olunandan sonra xalq düşməninin ailəsi kimi övladlarının yaşamadığı acılar qalmadı. Həm iş, həm də oxumağımızla bağlı çox əzab-əziyyətlər çəkdik. Məni Rəssamlıq Məktəbindən qovdular. O vaxt müəyyən adamlar həbs olunanda rəsmi surətdə işlədikləri və oxuduqları yerlərə xəbər verməli idilər. Bibim oğlunu da tutmuşdular. Məni bu barədə rəsmi məlumat yazıb, məktəbə təqdim etməyə məcbur

etdilər. Ərizəni yazandan sonra məktəbin direktoru İsmayıl Axundov məni çağırıb: ”Atanı-ananı tutdular, indi də gəlib səni tutsalar, gərək mən cavab verəm. Səni istəyirəmsə, özümü səndən çox istəyirəm. Sabahdan dərsə gəlmə”, – dedi. Mən məktəbə bərpa olunmağım haqqında bir neçə dəfə Mədəniyyət İdarəsinə ərizə ilə müraciət elədim. Bir gün komissiya təqdim olunan ərizələrə baxmaq üçün vaxt təyin elədi. Onda komissiyaya rəhbərliyi Ruhulla Axundov edəcəkdi. Həmin gün Ruhulla Axundovun tutulduğunu eşitdik. Sonra idarəyə Davud Rəsulzadəni rəhbər təyin etdilər. O da ərizələrə baxmaq üçün vaxt müəyyənləşdirdi. Həmin gün onu da tutdular. Sonra Mirzə İbrahimov bizə kömək elədi və bizi məktəbə bərpa elədilər. Üzeyir bəy də həmin komissiyanın üzvü idi. Hər yerdə çətinlik idi. Ancaq sonra da bizimlə işləməyə qorxurdular. Qara buludlar ailəmizin başı üzərindən çəkilmədi. Anam Umgülsümü də Seyid Hüseynin həyat yoldaşı və Məmməd Əminin qohumu olduğu üçün həbs etdilər. Onun həbsində həmçinin bolşeviklər əleyhinə yazdığı şeirlərin də rolu vardı. Anamın yazdığı “Bayrağımız enərkən” şeiri o zaman çox yayılmışdı. Müşfiqin yoldaşı Dilbəri də tutmuşdular. O mənim anamla bir kamerada saxlanırdı. Sonra ruhi xəstə olduğu üçün onu azad etdilər”…

***II Tədbir iştirakçısı: Bir ailədən 13 nəfər repressiya qurbanı***

Acılar yenə də bitmədi. 1941-ci ildə 20 yaşlı Oqtayı həbs edərək sürgünə göndərdilər.

Oqtay Sadıqzadə: “1946-cı ildə sürgündən azad olaraq Bakıya qayıtdım. Evimizi möhürləyib hökumətə vermişdilər. Həmin evin aşağısında bibimgil olurdu. Mən bir il gözləyəndən sonra heç bir xəbər-ətər çıxmadığını görüb, həmin möhürü açdım. Əlimdə sənətim vardı. Orda-burda işləyib az-çox qazanırdım. O biri uşaqlar isə məndən kiçik

idi. Evdə özümdən kiçik iki qardaşım, bir bacım vardı. Kiçik qardaşım Cığatayı da xalq düşməninin oğlu kimi həbs etmişdilər. O, işçi batalyonundan xəstə qayıtdığı üçün vəfat etdi. Beləliklə, bizim nəsildən 13 nəfər repressiyanın qurbanı oldu.

Anası Umgülsümü də görmək Oqtay Sadıqzadəyə qismət olmur. Çünki anası qayıdıb gələndən üç ay sonra dünyasını dəyişmişdi. Umgülsüm çox ağır vəziyyətdə qayıtmışdı. Onu Bakıda yaşamağa da qoymamış, Şamaxıya göndərmişdilər. O. Sadıqzadə anasının ölümündən yalnız qayıdandan sonra xəbər tutur: “Atamın ölümü haqqında isə üç müxtəlif versiya söyləyirlər. Moskvadan alınan rəsmi məlumatda 1939-cu ildə güllələnməsi haqqında məlumat verilir. Digər bir məlumatda onların bəzisinin Bakıda, Qum adasında güllələndiyi bildirilir. Sənədlərin birində isə guya onların ürək xəstəliyindən, öz əcəlləri ilə vəfat etməsi yazılıb”.

Repressiya illərinin sərt küləkləri sakitləşib, ölkədəki siyasi vəziyyət dəyişəndən sonra bir çoxları kimi Seyid Hüseyn və Umgülsüm xanım da bəraət aldı. Ancaq nə acılar ki, bu bəraət digər repressiya qurbanları kimi onların da taleyini dəyişmədi…

Azərbaycan ədəbiyyatının qüdrətli yaradacılarından biri - Seyid Hüseynin yubileyi ilə keçirilən təbdirlərdən biri də “Yeni həyatın tərənnümçüsü, adlı **oxucularla söhbətdir.**

Kitabxanaçı tədbir iştirakçılarını salamladıqdan sonra ədib haqqında məlumat verir. Tədbirə dəvət almış xüsusi qonaqlar Seyid Hüseynin ömür yolu və onun məsuldar yaradıcılığından söhbət açır. Bundan sonra F. Köçərli adına kitabxananın metodisti tədbirdə iştirak edən məktəblilərə Seyid Hüseynin sevilən əsərlərindən “İki həyat arasında” adlı əsərini ixtisarla oxumağa başlayır:

*Kitabxanaçı:* Ənisə qapıdan içəri girdikdə əmisi oğlu Muxtarı yenə evdə gördü. O, Ənisənin atası ilə şirin söhbət edirdi. Muxtar iki il əvvəl məktəbi bitirmişdi. Mərkəzi işçi kooperativində orta bir vəzifə daşıyırdı. Ənisəni ona hələ kiçik yaşda ikən anaları nişanlamışdı. Ənisə onların söhbətini dinləməyə başladı. Məşədi Əhmədin söhbəti heç də maraqlı deyildi. Cavanlıqda eşitdiyi bir möcüzədən bəhs edirdi. Muxtar da onun sözlərini təsdiq edirdi. Əlavə olaraq, özü də möcüzə qəbilindən bir əhvalat quraşdırıb nağıl etdi. Muxtar möcüzəyə inanacaq halda deyildi, o, bunu yalnız gələcəkdə qayınatası olacaq əmisinin könlü xoş olmaq üçün söyləyirdi. Bu, Muxtarın bir xüsusiyyəti idi. O özünü qarşısındakı adama bəyəndirmək üçün hər rəngə müvəffəqiyyətlə girə bilirdi. Onun bu halı Ənisənin xoşuna gəlmirdi.
Payız mövsümü yaxınlaşdıqca Ənisənin vəziyyəti ağırlaşırdı. Üç ay olardı ki, o, məktəb həyatından ayrılmışdı. Bu üç ayın ərzində o, gələcək həyatı ilə bağlı bir qərara gəlməmişdi. Onun qarşısında üç yol vardı: darülfünun, ictimai həyat, ər evi. Ənisənin bütün yoldaşları darülfününa girmək üçün çalışırdılar. O, hələlik heç bir təşəbbüsdə bulunmamışdı. Çünki Ənisəyə, hər şeydən əvvəl, özünü və ailəsini dolandırmaq lazım idi. Bunun üçün Ənisə darülfünun yolunu hələlik ikinci mövqeyə buraxıb ictimai həyat yolunu tutmalı idi. O, burada müvəffəqiyyətlə çalışa bilərdi. Onun maddi vəziyyəti də burada təmin edilərdi. Ancaq bir məsələ vardı ki, atası Məşədi Əhməd ona müsaidə vermirdi. Məşədi Əhməd Ənisəni üçüncü yolu tutmağa, ər evinə getməyə məcbur edirdi. Ənisə qətiyyən ər evinə getməyəcəkdi. O gedəcəyi yeri çox yaxşı bilirdi. Buna baxmayaraq, istədiyi kimi hərəkət etməkdə aciz idi. Ənisə iki həyat arasında qalmışdı. Yeni həyat onu öz tərəfinə çəkirdi, əski həyatın izləri onu tutub

buraxmırdı. Ənisənin yoldaşlarından bir neçəsi maarif şöbəsinə müraciətlə özlərinə müəllimlik yeri almışdı. Ənisə də oraya müraciət etdi. Kəndlərin birində müəllimlik yeri vardı. O, təkbaşına kəndə gedə bilməyəcəkdi. Onun yalnız bir ümidi vardı: atasını və ögey anasını yanına alıb kəndə getmək...

Bu fikrini atasına açıb söyləmək üçün münasib bir vaxt aradığı halda atası onu yanına çağırdı:

– Ənisə, – dedi, – sən özün görürsən ki, mən qocalmışam. Gözlərim yaxşı görmür, əllərim işləməkdən qalıbdır. Yavan çörəyi belə doyunca yeyə bilmirik, nə üçün sən qoca atanın bu halını nəzərə almırsan?

Ənisə qızardı. Bilirdi ki, atası onunla Muxtar barəsində danışacaqdır. Başını aşağı salıb cavab verdi:

– Bilirəm, siz atalıq haqqı ilə məni böyütdünüz, məktəbdə oxumağa imkan verdiniz, mən də övladlıq vəzifəsi ilə qocalığınız zamanında sizə kömək etməliyəm. Mən buna çalışıram.

Məşədi Əhməd məmnun bir tərzdə:

– Çox sağ ol, qızım. Mən bu barədə səndən razıyam, – dedi.

– Mənim sizə köməyim yalnız öz zəhmətim sayəsində olacaqdır. Mən özümə müəllimlik yeri tapmışam. Alacağım maaş bizə kifayət edər. Bu barədə mənə izin veriniz.

Məşədi Əhmədin qaşları çatıldı:

– Nə üçün əmin oğluna getmək istəmirsən?

– Başqasının qazancına göz dikməkdən nə çıxar? Bir zamanda ki, mən özüm də onun kimi çalışıb qazana bilərəm.

Məşədi Əhməd hirsləndi:

*Əsərin ardını Seyid Hüseynin "Seçilmiş əsərləri" kitabından oxuya bilərsiniz.*

Seyid Hüseynin 135 illik yubileyi və ən əsası, ədibin yaradıçılığını gənc nəslə tanıtmaq məqsədilə məktəblərdə keçirilən tədbirlərlə yanaşı, bir sıra təqdirəlayiq işlər də görülməkdədir. Bunlardan biri də "Ədəbiyyatımızın təkrarsız adamı-Seyid Hüseyn" adlı **divar qəzetidir.** Ədibin yaradıcılığı ilə yaxından bələd olan məktəblilər divar qəzeti tərtib edirlər. Qəzet məktəbin girişindən asılır. Qəzeti tərtib edən məktəblilər müdriyyət və müəllim kollektivi tərəfindən fəxri fərmanla mükafatlandırılırlar. Müxtəlif adda kiçik başlıqların da yer aldığı divar qəzeti məktəblilərin geniş marağına səbəb olur.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri Seyid Hüseynin yubileyi ilə əlaqədar olaraq "Xalqa həsr edilmiş həyat" adlı **ədəbi-bədii gecə** keçirilə bilər. Yusif Seyid Hüseynin xatirəsinə həsr olunmuş gecəyə Azərbaycanın görkəmli ədiblərini, tədqiqatçıları, sənət-söz adamlarını və s. dəvət etmək olar. Tədbir iştirakçıları kitab sərgisi ilə tanış olduqdan sonra zalda əyləşirlər. Ədibin həyat və yaradıcılığından bəhs edən slaytdan sonra, tədbiri açıq elan etmək üçün aparıcılar səhnəyə daxil olurlar.

***I Aparıcı:*** Salam, dəyərli qonaqlar, bu il Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, nasir və tənqidçi Seyid Hüseynin anadan olmasının 135–illiyi tamam olur. Bu münasibətilə buraya yığışmışıq.O, istedadlı qələm sahibi, ziyalı şəxsiyyət maarif xadimi, yazıçı, müəllim, naşir idi. Çox qısa zamanda həmin fəaliyyət sahələrinin hər birində uğur qazanmışdı.

Seyid Hüseyn nəsrində insanla onu əhatə edən mühit arasında, ənənəvi həyat tərzi ilə yeni formalaşmaqda olan münasibətlər arasında ziddiyyətlər çox real və kəskin şəkildə verilmişdir. Şübhəsiz ki, Seyid Hüseynin bir yazıçı olaraq gördüyü yol, mövzu, problem dairəsi, istifadə etdiyi üslub və

digər bədii prinsiplər düzgün isdi və təəssüf ki, 20-30- cu illər üçün səciyyəvi olan bu uğurlu praktika repressissiyadan sonrakı nəslin təcrübəsində ideologiyanın, formal xəlqiliyin və snifliyin hesabına saxtalaşdırıldı.

***II Aparıcı:*** Seyid Hüseyn Azərbaycanda tənqidi fikrin inkişafına sanballı töhfələr vermişdir. O, Cəlil Məmmədquluzadənin, N.B.Vəzirovun, Nərinman Nərimanovun, M.Ə. Sabirin, C.Cabbarlının və milləti maarifləndirməyə çalışan, adi ideyalara xidmət edən bir çox başqa Azərbaycan söz ustalarının yaradıcılığından böyük bədii qüvvə ilə yazılmışdır. Bu keyfiyyətlər Seyid Hüseynin yaradıcılıq fəaliyyəti üçqün də səciyyəvidir. O, xalq dilinin böyük bilicisi idi, dilnin təmizliyi uğrunda mübarizə aparırıdı.

***II Aparıcı:*** Yazıçının janr baxımından yeganə irihəcmli əsəri "Armus" romanıdır. Qadın problematikasından bəhs edən "Armus" romanı yazıçının həbsi zamanı müsadirə olunduğundan əsərin iş nüsxəsindən bəzi fraqmentlər və "İnqilab və mədəniyyət" də çap olunmuş bir parça hifz olunmuşdur.

Hekayə Seyid Hüseyn bədii sənətinin ən işlək və populyar növüdür. Bu, vəziyyət hekayəsindən daha çox xarakter hekayəsidir. Yazıçının çox vaxt hekayə kimi təqdim olunan hekayəsi fikrimizcə, daha çox kiçik povest janrının parametrlərinə uyğundur.

***I Aparıcı:*** Nəsrinin bütün bu məziyyətlərinə görə Seyid Hüseyn özündən sonra gələn nasirlərimiz üçün yaxşı bir örnək olmuş, onun hakimanə, duzlu, şirin hekayələri, Azərbaycan hekayələri üçün möhkəm təməl daşı rolunu oynamışdır.

Seyid Hüseyn nəcib insani keyfiyyətlər ilə həqiqi sənətkarlığı öz simasında birləşdirən nadir sənətkarlarımızdandır.

Ədəbiyyatımızın və ümumiyyətlə mədəniyyətimizin tarixində Seyid Hüseynin misilsiz xidmətləri vardır. Buna görə də biz onu hər zaman, həmişə yüksək məhəbbət, iftixar və dərin minnətdarlıq hissi ilə yad edirik, edəcəyik.

***II Aparıcı:*** 1937-ci ilin yayında həbs olunmuş Seyid Hüseyn Sadıqzadə 1938-ci ilin yanvarın 5-dən6-na keçən gecə Teymur Hüseynov, Əli Məmmədov, Maqsud Məmmədov kimi maarif və mədəniyyət xadimləri ilə bir sıra da güllələndi. Artıq bu zaman istedadlı ədib Artıq bu zaman istedadlı ədib öz ədəbi-tənqidi məqalələr və publisistikası, ədəbi təşkilatçılıq fəaliyyəti və umnudulmaz nəsr əsərləri ilə ölməzlik hüququnu təmin etmişdi.

**F. Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**

Seçilmiş əsərləri. - Təkrar nəşr, 1993-cü il nəşri əsasında. - Bakı : Şərq-Qərb, 2006. - 328 s.

Azərbaycan nəsri antologiyası. C. 3.: 1920-1930-cu illər. - Bakı : Şərq-Qərb, 2006. - 416 s.

Gilan qızı : Povestlər və hekayələr. - Bakı : Azərnəşr, 1993. - 352 s.

Hekayələr. - Bakı : Gənclik, 1977. - 183 s.

Həzin bir xatirə : hekayələr. - Bakı : Gənclik, 1973. - 78 s.

İki həyat arasında : hekayələr. - Bakı : Gənclik, 1987. - 127 s.

Seçilmiş əsərləri : hekayələr. - Bakı : Azərnəşr, 1960. - 426, [1] s.

Şirinnaz : hekayə. - Bakı : Uşaqgəncnəşr, 1961. - 76 s.

Xeyir" və "bərəkət" ayı : hekayələr. - Bakı : Azərnəşr, 1965. - 36 s.

Yatmış kəndin qış gecələrində : hekayələr. - Bakı : Gənclik, 1969. - 140 s

Haqqında kitablarda

Bağırzadə N. K. Gecikmiş etiraf kimi : esse. - Bakı : Şirvannəşr, 2007. - 128, [8] s.

Mustafazadə N. B. Klassiklərimiz, müasirlərimiz. - Bakı : QAPP-POLİQRAF, 2003. - 400 s.

Sadıqzadə Q. Mənim nakam qardaşım. - Bakı : Çaşıoğlu, 2002. - 286 s

Dövrü mətbuatda

Anar. "Vətən ayrısı Rəsulzadələr" kitabı haqqında bir neçə söz // Ədəbiyyat qəzeti. - 2018. - 29 dekabr. - № 51/52. - S. 3.

Anar. Aydınlarımız : Söz dünyası kitabı // Ədəbiyyat qəzeti. - 2019. - 23 noyabr. - № 41/42. - S. 2-5.

Bağırzadə N. "Mən saralıb-soldum qərib ellərdə..." : Ümgülsüm xanımın 75 il əvvəl qırılan ömrünə elegiya // 525-ci qəzet. - 2019. - 2 oktyabr. - № 132. - S. 20.

Əliyeva İ. Oxşar talelər : Azərbaycan Milli Mətbuatı 142 : "Azərbaycan"ın yazarları // Azərbaycan : qəzet. - 2017. - 22 iyul. - № 156. - S. 6.

Fərəcova Z. Vətən sevdalılar : "Azərbaycan"ın birləşdirdiyi, repressiyanın məhv etdiyi talelər // Azərbaycan : qəzet. - 2018. - 9 sentyabr. - № 201. - S. 1, 6.

Həqiqət illüziyonu : hekayə // Ədəbiyyat qəzeti. - 2008. - 25 yanvar. - S. 3, 5. - Məqalə Könül Nəhmətovanın "Əbədiyyətə qovuşmuş etiraf yaxud ağrıyan vicdanın səsi" başlığı altında giriş sözü ilə çap olunmuşdur.

İlk istiqlal dövrümüzün ədəbi salnaməsi // Mədəniyyət. - 2018. - № İyul-Xüsusi buraxılış (Cümhuriyyət -100 il). - S. 44.
Niyarlı M. Seyid Hüseyn yadigarı -Qumral Sadıqzadə : Qumral Sadıqzadənin 90 illiyinə // Ədəbiyyat qəzeti. - 2019. - 16 fevral. - № 6. - S. 14-15.

Qasımova M. Ölümə məhkum edilmiş talelər : repressiyanın qurbanı Seyid Hüseyn haqqında // Mədəniyyət. - 2009. - 23 aprel. - S. 14.

Sərvi S. Bir röyamı oldu o gördüklərim ? : Şairə Umgülsumun acı taleyindən yazdığı xatirələri // El. - 2012. - № 3. - S. 29-36.

Turan A. Seyid Hüseyn və Ümgülsüm Sadıqzadənin həyat dramı // Xalq qəzeti. - 2016. - 13 dekabr. - № 276. - S. 7.

# Həqiqət illuzyonu- Seyid Hüseyn

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn: Aynurə Əliyeva**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**